№ 31 (974) 3-9 avqust 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# MÜASİR SƏVİYYƏDƏ YENİ YOLLARIN İNŞASI TURİZM SEKTORUNUN İNKİŞAFINA DƏSTƏKDİR



Avqustun 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yenidən qurulan Pirşağı-Novxanı dənizkənarı və Binaqədi-Novxanı-Corat avtomobil yollarının açılışında iştirak edib.

"Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlərlə bağlı məlumat vermişdir.

Bildirilmişdir ki, Pirşağı-Novxanı avtomobil yolu dənizkənarı dairəvi yola birləşməklə Sumqayıt şəhərindən Abşeron yarımadasının şimal və şimal-şərq hissələrinə rahat və maneəsiz gediş-gəlişi təmin edəcək. Beləliklə, layihənin həyata keçirilməsi nəticəsində Abşeron yarımadasının şimal-şərq hissəsindən şəhərə daxil olmadan Bilgəh, Nardaran, Kürdəxanı, Pirşağı, Fatmayi, Goradil, Novxanı, Saray, Masazır, Xırdalan və Sumqayıt istiqamətlərində hərəkət etməklə avtomobillərin Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi və Bakı-Şamaxı-Yevlax magistral yollarına çıxışı təmin ediləcək. Bu isə öz növbəsində Bakının avtonəqliyyat sıxlığının azalmasına müsbət təsir göstərəcək.

Bu yol Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq Abşeron yarımadasının şimal hissəsində sahilboyu salınıb. Yolun uzunluğu 13,5 kilometrdir. Layihəyə uyğun olaraq ikizolaqlı yolun hərəkət hissəsinin eni 9 metrdir. Sahil boyunca bəzi ərazilərdə mövcud yolun eni genişləndirilib. Həm Novxanı, həm də Pirşağı qəsəbələrindən keçən hissələrində yolun eni 3-4 metrdən 9 metrə çatdırılıb. Bəzi ərazilərdə isə yol tamamilə yeni tras üzrə inşa olunub. Belə ki, vətəndaşların rahat və təhlükəsiz hərəkətini təmin etmək məqsədilə yol boyunca yeni piyada səkiləri də tikilib. Yolun bu cür müasir səviyyədə inşası, ilk növbədə, nəqliyyatın hərəkətinin yüksək səviyyədə təmini, bu istiqamətdə baş verə biləcək tıxacların qarşısının alınması, Bakı şəhərinin qəsəbələrinin və kəndlərinin sakinlərinin sosial məsələlərinin həlli baxımından böyük rol oynayır. Layihənin icrası həm də paytaxtın dənizkənarı turizm məkanlarına daha tez və rahat çatmaq, turizm sektorunun inkişafına dəstək vermək baxımından mühüm əhəmiyyət daşıyır.

Pirşağı-Novxanı avtomobil yolu Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarına əsasən, bu il reallaşdırılacaq 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələrindən biridir. Avtomobil yolunun tikintisi texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək keyfiyyətlə aparılıb.

Sonra dövlətimizin başçısı yenidən qurulan Binaqədi-Novxanı-Corat avtomobil yolunun açılışında iştirak etmişdir. Azərbaycan Prezidentinin sərəncamına uyğun olaraq bu il ölkəmizdə reallaşdırılan 40 kənd və qəsəbələrarası avtomobil yolu layihələri çərçivəsində bu yol da müasir səviyyədə yenidən qurulub. Bu layihənin icrası nəticəsində 5 yaşayış məntəqəsinin 72 min nəfər əhalisinin gediş-gəlişi xeyli asanlaşıb.

## Almaniya şirkəti Sumqayıtda zavodunu açacaq



**Avtomobil ehtiyat hissələri istehsalı yaradıla bilər**

İyulun 27-də iqtisadiyyat naziri Şahin Mustafayev Almaniyanın "TEMCO Group" şirkətinin rəhbəri Frank Templinlə görüşüb.

Nazir Şahin Mustafayev Azərbaycan iqtisadiyyatı, aparılan iqtisadi islahatlar, biznes və investisiya mühiti, sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Görüşdə qarşılıqlı iqtisadi əməkdaşlıq, alman investisiyalarının Azərbaycan iqtisadiyyatına cəlb edilməsi, eləcə də Sumqayıt Kimya Sənaye Parkında avtomobil sənayesi üçün plastik tərkibli ehtiyat hissələri istehsalının yaradılması barədə müzakirələr aparılıb.

Vurğulanıb ki, plastik tərkibli ehtiyat hissələri istehsalının təşkili üçün Sənaye Parkında xammal potensialı mövcuddur, Azərbaycanın əlverişli coğrafi mövqeyi və ticarət rejimi istehsal olunan məhsulların region ölkələrinin bazarlarına ixrac imkanları yaradır.

Görüş zamanı Sumqayıt Kimya Sənaye Parkında peşə tədrisinin Almaniya təcrübəsi əsasında inkişafı da müzakirə olunub.

Görüşdə Azərbaycanın Almaniyadakı fəxri konsulu Otto Hauser də iştirak edib.

## Enerjiyə artan tələbatı tam ödəyəcək yeni stansiya inşa ediləcək

AzərEnerji®

"Azərenerji" ASC Bakının Qaradağ rayonunda 385 MVt gücündə elektrik stansiyası inşa etməyi planlaşdırır. Bu barədə ASC-dən məlumat verilib.

"Hazırda Qaradağ rayonunun Səngəçal qəsəbəsində gücü 385 MVt olan yeni elektrik stansiyasının tikintisi layihəsinə hazırlıq işləri görülür. Bununla bağlı Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirlərin Qiymətləndirilməsinə (ƏMSİSTQ) dair hesabat hazırlanır. Layihə razılaşdırılmaq məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi və beynəlxalq təsisatlara təqdim olunacaq", - ASC-dən bildiriblər.

"Səngəçal-2" elektrik stansiyasının inşası Azərbaycanın elektrik enerjisinə olan artan tələbatını tam həcmdə ödəyəcək.

"Azərbaycan Respublikasının enerji təhlükəsizliyinin davamlı olaraq təmin edilməsi və elektrik enerjisinə artan tələbatın ödənilməsi məqsədilə yeni layihələrin həyata keçirilməsi vacib əhəmiyyət daşıyır. Bakı şəhəri, Qaradağ rayonu, Səngəçal qəsəbəsində tikintisi nəzərdə tutulmuş 385 MVt gücündə yeni elektrik stansiyası da bu qəbildəndir". İnşa zamanı Finlandiyanın «Wartsila" şirkətinin W20V-50SG tipli 21 mühərrik - müasir avadanlığı istifadə olunacaq.

"Həmin mühərriklər məhz təbii qazla çalışacaq, bu da onların istifadəsini mühüm dərəcədə sadələşdirəcək. Bundan başqa, yeni stansiyanın soyuducu sistemi qapalı tipli olacaq, bu da qənaət nöqteyi-nəzərindən səmərəlidir. Atmosferə qaz tullantıları xüsusi filtrlərdən keçəcək.

Azərbaycan Qaz Emalı Zavodundan müqavilə əsasında alınan təmizlənmiş qaz ətraf mühitə zərər verməyəcək", - ASC-dən qeyd ediblər.

Yeni stansiyada 90-100 nəfər çalışacaq.

BT Bioloji Təbabət

Bioloji Təbabət xəstəliyi deyil, xəstəni müalicə edir !

Niyə məhz Bioloji Təbabət ?
Bioloji Təbabət öz müalicə prinsipini xəstə orqanizmin biotənzimləyici imkanlarını səfərbər etməklə, süni-kimyəvi vasitələrdən istifadə etmədən xüsusi üsullar üzərində qurmuşdur.

DİAQNOSTİKA
☑ Qaranlıq sahəli mikroskopiya
☑ Rentgen
☑ USM
☑ Rəngli-doppler
☑ Endoskopiya
☑ EKQ (elektrokardioqrafiya)
☑ Exo-KQ
☑ EEQ (elektroensefaloqrafiya)
☑ Densitometriya
☑ KT (kompyuter tomoqramma)
☑ Elektromioqrafiya
☑ BRT (biorezonans terapiya)

TERAPİYA
☑ Allerqologiya
☑ Dermatologiya
☑ Endokrinologiya
☑ Kardiologiya
☑ Nevrologiya
☑ Qastroenterologiya
☑ Urologiya
☑ Andrologiya
☑ Oftalmologiya
☑ Vertebrologiya

LABOROTORİYA
☑ Klinik analizlər
☑ Biokimyəvi analizlər
☑ Hormonların təyini
☑ İmmunoloji analizlər
☑ Mikrobioloji analizlər
☑ Onkomarkerlərin təyini
☑ PZR müayinələr
☑ Genetik analizlər (AFGEN laboratoriya)











Ünvan: Bakı şəhəri, 3-cü mkr., Pişəvari küç., 110 (Cavadxan küç 24), Memar Əcəmi metrosunun yaxınlığında

/bioloji.tababat
www.btk.az

(012)(050) (055)(070) 430 89 89

# Mərkəzi Bank uçot dərəcəsini dəyişməz saxladı



Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti 1 avqust 2017-ci il tarixində uçot dərəcəsinin 15% səviyyəsində və faiz dəhlizinin digər parametrlərinin (dəhlizin aşağı həddi 10%, yuxarı həddi 18%) dəyişməz saxlanılması barədə qərar qəbul etmişdir. Bu barədə Mərkəzi Bankdan bildirilib.

**Açıqlamada deyilir:**

-Makroiqtisadi sabitliyin dərinləşdiyi bir şəraitdə iqtisadiyyatın aparıcı sektorunda işgüzar aktivliyin bərpası davam edir. Xarici balansın yaxşılaşması şəraitində valyuta bazarının tarazlığı təmin olunur və manatın məzənnəsi sabitdir. Qeyd olunan meyillər fonunda fiskal və maliyyə sektorunun likvidliyinin idarə edilməsi məqsədilə Mərkəzi Bank öz balansını bir qədər genişləndirmiş və iqtisadiyyata pul təklifini artırmışdır. İnflyasiya gözləntilərinin nisbətən səngiməsi davam etsə də, inflyasiya ilə əlaqəli, xüsusilə təklif və struktur xarakterli risklər tam aradan qalxmayıb.

**Faiz dəhlizinin parametrlərinə dair qərar qəbul edilərkən aşağıdakı makroiqtisadi meyillər nəzərə alınmışdır:**

**İqtisadi aktivlik.** Real sektor və iqtisadi aktivlik göstəricilərinin dinamikası bərpa meyillərinin davam etdiyini nümayiş etdirir. Dövlət tələbi və xarici tələbin yüksəlməsi fonunda 2017-ci ilin 6 ayında qeyri-neft sektorunda 1.7%-lik iqtisadi artım qeydə alınmışdır. İqtisadi artım iqtisadiyyatın sahələri üzrə fərqlənir. İqtisadi artım ticari sektorda 3.7%, o cümlədən qeyri-neft sənayesində 5.4%, kənd təsərrüfatında 2.2% təşkil etmişdir. Mərkəzi Bank tərəfindən iyun ayında aparılan real sektorun monitorinqinin nəticələrinə görə, emal sənayesində istehsal indeksi və ticarətdə satış indeksi göstəriciləri yaxşılaşır, istehsal güclərinin yüklənmə səviyyəsi yüksəlir. Eyni zamanda, ev təsərrüfatları arasında keçirilən sorğular istehlakçı inamının son rübdə artdığını göstərir.

**Xarici balans və məzənnə.** Birinci yarımillikdə neftin orta dünya qiymətinin proqnoz səviyyə və ötən ilin eyni dövrü ilə müqayisədə əhəmiyyətli yüksəlməsi, qeyri-neft sektorunda ixracın aktivləşməsi və idxalın azalması trendlərinin təsiri altında xarici sektor göstəricilərinin yaxşılaşması davam edir. Yanvar-iyun aylarında ötən ilin eyni dövrü ilə müqayisədə ixrac 36.5%, o cümlədən qeyri-neft ixracı 27.9% artmış, idxal isə 15.7% azalmışdır. Xarici ticarət balansının profisiti 1.9 mlrd. ABŞ dolları təşkil etmiş, ölkənin strateji valyuta ehtiyatları artmışdır.

Xarici sektor göstəricilərinin yaxşılaşması və mövcud makroiqtisadi siyasət çərçivəsi valyuta bazarının tarazlığını və milli valyutanın məzənnəsinin sabitliyini təmin edir. Mövcud xarici və daxili makroiqtisadi parametrlər çərçivəsində milli valyutanın xarici dəyərinin sabitliyi dayanıqlıdır. Manatın sabitliyi dedollarizasiya meyili yaradır.

**Monetar şərait.** Monetar şərait ikinci rübdə nisbətən yumşalsa da, ümumilikdə dövr ərzində neytral olmuşdur. İqtisadiyyatın, o cümlədən fiskal sektorun pula olan tələbinə adekvat olaraq pul siyasətinin başlıca əməliyyat hədəfini təşkil edən pul bazası 2017-ci ilin ötən dövründə 6%-dən çox artmışdır. Bu, ödəniş sisteminin sabitliyini təmin etməklə bərabər, iqtisadiyyatın kreditləşdirilməsi imkanlarını genişləndirən amildir. Lakin ilin əvvəlindən bank sektorunun likvid aktivlərinin əhəmiyyətli artımı fonunda real sektorun kreditləşməsi dinamikası bu ekosistemdə əlavə dəstəkləyici tədbirlərə ehtiyacın olduğunu göstərir.

**Mərkəzi Bankın formalaşdırdığı monetar şərait iqtisadiyyatda yığımların stimullaşdırılması ilə, istehsalın balanslı artımını tarazlaşdırmaqla mövcud inflyasiya risklərinin məhdudlaşdırılmasına yönəldilmişdir.**

**İnflyasiya prosesləri.** Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, cari ilin I yarısında orta illik inflyasiya 13.9% təşkil etmişdir. Orta illik əsasda ərzaq qiymətləri 18.1%, qeyri-ərzaq qiymətləri 12.4%, xidmətlər isə 9.4% dəyişmişdir.

Aylıq inflyasiya səviyyəsində mövsümi azalmaya və inflyasiya gözləntilərinin nisbətən səngiməsinə baxmayaraq, hələ ki, inflyasiya üzərində qısa və orta müddətli risk amilləri tam neytrallaşmayıb.

2017-ci ilin qalan dövründə baza inflyasiyanın (qiymətləri dövlət tərəfindən tənzimlənən məhsullar və xidmətlərin, həmçinin mövsümi xarakter daşıyan məhsulların qiymət və tariflərinin dəyişimi nəzərə alınmadan hesablanan inflyasiya) azalma tendensiyasına malik olacağı gözlənilir. Ümumi inflyasiya səviyyəsinin isə manatın məzənnəsi, inersiya, məcmu daxili tələb, qiymətləri dövlət tərəfindən tənzimlənən mal və xidmətlərin qiymətlərinin dəyişimi, qlobal əmtəə bazarlarında meyillər və s. amillərdən asılı olaraq balanslaşacağı gözlənilir.

Mərkəzi Bankın İdarə Heyətində faiz dəhlizinin parametrləri növbəti dəfə 18 sentyabr 2017-ci il tarixdə müzakirə ediləcəkdir.

# "MİDA" MMC ilə əməkdaşlığa başlayan növbəti kredit təşkilatı "Bank BTB" olub

"MİDA" MMC ilə əməkdaşlığa başlayan növbəti kredit təşkilatı "Bank BTB" olub.

Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin (MİDA) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, ölkə başçısının 16.11.2016-cı il tarixli müvafiq Fərmanı ilə təsdiq edilmiş Qaydaya əsasən, MİDA-nın sərəncamında olan mənzilləri əldə etmək hüququna malik vətəndaşlara təqdim olunan güzəştlərdən biri "Azərbaycan İpoteka Fondu" ASC-nin vəsaiti hesabına güzəştli ipoteka kreditindən yararlanmaq imkanıdır. Belə kreditlər "Azərbaycan İpoteka Fondu" ASC-nin müvəkkil banklarının siyahısına daxil olan və agentliyin tabeliyində fəaliyyət göstərən "MİDA" MMC ilə əməkdaşlıq müqaviləsini bağlayan agent banklar vasitəsilə veriləcək.

Belə ki, vətəndaşlar üçün bu şəraiti təmin etmək məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən "Azərbaycan İpoteka Fondu" ASC-nin müvəkkil banklarına edilmiş müraciətə əsasən "MİDA" MMC ilə əməkdaşlıq etmək niyyətini təsdiqləyərək tələb olunan sənədləri təqdim edən növbəti kredit təşkilatı "Bank BTB" olub. Bu il iyulun 31-də "MİDA" MMC ilə müvafiq əməkdaşlıq müqaviləsini imzalamış "Bank BTB" 10 filialı, 7 şöbəsi və baş ofisinin nəzdində fəaliyyət göstərən Müştəri Xidməti ilə təmsil olunur.

# Elektron İpoteka Sisteminin tətbiqinə başlanıldı

İpoteka ilə mənzil sahibi olmaq istəyənlərin işi asanlaşıb. Avqustun 1-dən Elektron İpoteka Sisteminin tətbiqinə başlanılıb.

AZƏRTAC xəbər verir ki, artıq "Azərbaycan İpoteka Fondu"nun vəsaiti hesabına verilən ipoteka kreditindən istifadə etmək istəyən hər bir şəxs birbaşa internet vasitəsilə onlayn rejimdə Elektron Hökumət Portalına daxil olaraq, müvafiq qaydada ipoteka kreditinin alınması üçün müraciət edə bilər.

Yeni sistemin tətbiqi ipoteka kreditlərinə çıxış imkanlarının sadələşdirilməsinə, ipoteka krediti almaq istəyən şəxslər üçün bərabər şərait yaradılmasına, müraciətlərə baxılma zamanı şəffaflığın və operativliyin təmin edilməsinə, habelə informasiya-kommunikasiya texnologiyalarının imkanlarından faydalanaraq tələb olunan sənədləri real vaxt rejimində əldə etməklə, sərf olunan vaxta və xərclərə qənaət olunmasına, göstərilən xidmətlərin keyfiyyətinin və səmərəliliyinin artırılmasına xidmət edəcək.

# Mağazaların girişində vurulan reklamlara görə rüsum ödəniləcək?

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Dövlət Reklam Agentliyi yaradılır.

Agentlik avtomobil yollarının torpaq sahəsində, şəhər, qəsəbə, kənd və digər ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazisi istisna olmaqla) yaşayış məntəqələrində (açıq məkanda) reklam daşıyıcılarının yerləşdirilməsi, reklam daşıyıcılarında yerləşdirilən reklamların istehsalı və yayımlanması sahəsində vahid tənzimləməni və nəzarəti həyata keçirən publik hüquqi şəxsdir.

Avqustun 1-dən açıq məkanda reklam yerləşdirmək istəyənlər Agentlikdən icazə almalı olacaqlar.

Açıq məkanda reklam yerləşdirilməsinə icazənin verilməsi üçün 5 manatdan 10 manatadək dövlət rüsumu ödəniləcəkdir. Açıq məkanda reklam yerləşdirilməsinə icazə verilməsinə görə Dövlət Reklam Agentliyinin (icazənin müddəti, reklam daşıyıcısının növü və quraşdırıldığı zonası nəzərə alınmaqla) bir kvadratmetr üçün müəyyən etdiyi dövlət rüsumu ödənilir.

Sahibkarlar xidmət, ticarət və ya digər obyektinin giriş hissəsində vurduqları lövhələrə görə rüsum ödəyib-ödəməyəcəkləri ilə maraqlanırlar.

"Reklam haqqında" Qanuna görə, açıq məkanda reklam avtomobil yollarının torpaq sahəsində, şəhər, kənd, qəsəbə və digər yaşayış məntəqələrində (açıq məkanda) olan reklam daşıyıcıları üzərində yerləşdirilən reklamdır.

Reklam daşıyıcısı reklamın istehlakçıya çatdırılması üçün istifadə olunan daşınmaz və daşınar əmlak, ixtisaslaşdırılmış stasionar və səyyar reklam qurğuları, nəqliyyat vasitələri, kütləvi informasiya vasitələri, kino, video, audio materiallar və çap məhsulları, telekommunikasiya qurğuları və poçt göndərişləri hesab olunur.

Qanunun 26-cı maddəsində qeyd olunur ki, birbaşa aid olduğu xidmət, ticarət və ya digər obyektlərin giriş hissəsində, divarında yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran lövhələr, habelə ölçüsündən asılı olmayaraq, şəhər informasiya stendlərində qeyri-kommersiya məqsədi ilə yerləşdirilən plakatlar, siyasi reklamlar, qeyri-hökumət təşkilatlarının, hüquqi və fiziki şəxslərin kommersiya fəaliyyəti ilə bağlı olmayan elanlar, həmçinin dövlət orqanlarına aid olan lövhələr reklam daşıyıcıları hesab edilmir. Qısası, mağazanızın girişinə istədiyiniz şəkildə və sayda reklamınızı vura bilərsiniz.

# Dövlət Neft Fondunda 57,5 milyard manat pul var

Bu ilin altı ayında Azərbaycan Respublikası Dövlət Neft Fondunun (Fond) vəsaiti ilin əvvəlinə nisbətən 1 milyard 643,9 milyon ABŞ dolları (büdcədənkənar gəlirlər 1 milyard 288,8 milyon ABŞ dolları daxil olmaqla) və ya 4,96 faizə qədər artaraq 34 milyard 790,9 milyon ABŞ dolları təşkil edib.

Bu barədə Hesablama Palatasının Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2017-ci ilin yanvar-iyun aylarında icra edilmiş büdcəsinin təhlilində bildirilir.

2017-ci ilin 6 ayı ərzində Dövlət Neft Fondunun gəlirlərinin ümumi həcmi 6 milyard 127,2 milyon manat və yaxud 3 milyard 504,7 milyon ABŞ dolları təşkil etməklə büdcədə nəzərdə tutulan məbləğə qarşı (8 milyard 370,6 milyon manat) 73,2 faiz səviyyəsində yerinə yetirilib.

Fondun xərcləri isə 5 milyard 533,8 milyon manat və ya 3 milyard 149,6 milyon ABŞ dolları təşkil etməklə büdcədə nəzərdə tutulan məbləğə qarşı (14 milyard 483,9 milyon manat) 38,2 faiz səviyyəsində icra edilib.

Fondun baza valyutasını təşkil edən ABŞ dolları ifadəsilə büdcədənkənar gəlirlər 1 milyard 288,8 milyon ABŞ dolları təşkil edib, həmin dövr ərzində isə ABŞ dolları ifadəsilə fondun büdcədənkənar xərcləri olmayıb.

2017-ci ilin ilk yarımilliyində fondun investisiya portfelinin gəlirliyi 1,12 faiz təşkil edib ki, bu da ötən ilin müvafiq göstəricisi ilə müqayisədə 0,62 faiz bəndi çoxdur.

Gəlirliyin artımını xərclərin nəzərdə tutulmuş məbləğə qarşı az icra edilməsi və səhm yatırımları üzrə gəlirliyin keçən ilin müvafiq rəqəmləri ilə müqayisədə daha yüksək olması ilə əlaqələndirmək olar.

Fondun ümumi gəlirlərinin 6 aylıq dövr ərzində 73,2 faiz icra edilməsinin əsas səbəbi kimi xam neftin ixrac qiymətinin dövlət büdcəsində 40 ABŞ dolları həcmində proqnozlaşdırılmasına baxmayaraq, 6 aylıq dövr ərzində mənfəət neftinin orta çəkili satış qiymətinin 53,0 ABŞ dolları təşkil etməsi olub.

Ümumilikdə isə, manat ifadəsilə fondun vəsaitləri bu il iyulun 1-nə 57 milyard 474,2 milyon manat təşkil edib.



Fondun xərclərinin 6 aylıq dövr ərzində 38,2 faiz icra edilməsini isə makroiqtisadi sabitliyin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Mərkəzi Bankına transfertin nəzərdə tutulmuş məbləğə qarşı (7 milyard 500milyon manat) 32,7 faiz az icra edilməsi ilə (2 milyard 448,3 milyon manat) əlaqələndirmək olar.

Fond tərəfindən 2017-ci il üçün dövlət büdcəsinə 6 milyard 100 milyon manat məbləğində nəzərdə tutulmuş transfert cari ilin altı ayı ərzində 2 milyard 991 milyon manat və ya 49,1 faiz səviyyəsində icra edilib.

# 10 rayonda pambıq tədarükü məntəqələri tikiləcək

Kənd Təsərrüfatı Nazirliyi yanında "Aqrolizinq" ASC Ağcabədi, Ağsu, Biləsuvar, Füzuli, Kürdəmir, Sabirabad, Neftçala, İmişli, Salyan və Yevlax rayonlarında pambıq tədarükü məntəqələrinin tikintisinin layihə-smeta sənədlərinin hazırlanması üzrə iş və xidmətlərin satın alınması üçün açıq tender elan edib.

Tenderdə iştirak haqqı 500 manatdır.

İddiaçılar ilkin sənədləri sentyabrın 7-nə qədər, tender təklifi və onun dəyərinin 2%-i qədər bank təminatını isə sentyabrın 15-nə qədər "Aqrolizinq"in Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Bəşir Bünyadov küçəsi 12 ünvanında yerləşən inzibati binasına təqdim etməlidirlər. Əlaqələndirici şəxs Ruslan Hüseynovdur. Telefon: (012) 452 66 94, (051) 255 92 42, E-poçt: h.ruslan@agrolizing.gov.az

Təkliflərə sentyabrın 18-də, saat 15:00-da qeyd olunan ünvanda baxılacaq.



# Vergilər naziri Ağsuda vətəndaşları qəbul etmişdir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.

Növbəti belə qəbul iyul ayının 21-də vergilər naziri Fazil Məmmədov tərəfindən Ağsu rayonunda Ağsu, Qobustan, Şamaxı və Kürdəmir rayonlarından olan vətəndaşlar üçün keçirilib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildiriblər.

# Vergilər Nazirliyində görüş keçirilib

İyul ayının 27-də Vergilər Nazirliyində Pakistan İslam Respublikasının Ticarət katibi Muhammad Yunus Daqhanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov Azərbaycanla Pakistan arasında mövcud olan yüksək siyasi əlaqələr və strateji tərəfdaşlıq münasibətlərini qeyd edərək, ölkələrimiz arasında əlaqələrin ildən-ilə genişləndiyini və bütün sahələri əhatə etdiyini bildirib. Nazir müavini ölkə rəhbərlərinin səmimi dostluq münasibətlərinin bu əlaqələrə xüsusi təkan verdiyini söyləyib və iqtisadi əlaqələrin bir qədər də dərinləşdirilməsi zərurətini vurğulayıb. Bildirib ki, Azərbaycanda vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, vergi ödəyicilərinin hüquqlarının və vergi potensialının genişləndirilməsi, eyni zamanda, investisiyaların cəlb edilməsi istiqamətində bu il Vergi Məcəlləsində dəyişikliklər edilib.

Nazir müavini vurğulayıb ki, dəyişikliklərin əsas məqsədi sahibkarların, xüsusilə kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həcminin artırılması, bankların likvidliyinin və bilavasitə vergi mühtinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviqi, dürüst və şəffaf uçotun qurulmasıdır.

Ölkəmizin vergi sistemində aparılan modernləşmə prosesi ilə bağlı qonağı ətraflı məlumatlandıran S.Məmmədxanov bildirib ki, Vergilər Nazirliyi tərəfindən aparılan islahatlar nəticəsində Azərbaycan biznesə başlama meyarları sahəsində Dünya Bankının hesabatında yüksək göstəriciyə layiq görülüb.

Pakistan İslam Respublikasının Ticarət katibi Muhammad Yunus Daqha Azərbaycanda əldə olunan sosial-iqtisadi inkişafın böyük maraqla qarşılandığını, iki ölkə arasında mövcud olan dostluq münasibətlərinin iqtisadi müstəviyə keçirilməsinin zəruriliyini qeyd edib, ticari və iqtisadi potensialın yüksək olduğunu bildirib və Azərbaycan-Pakistan investisiya forumunun iki ölkə arasında iqtisadi və ticari əlaqələrin daha da genişləndirilməsi baxımından faydalı olacağını vurğulayıb.

Vergi sistemində aparılan islahatların təqdirəlayiq olduğunu bildirən qonaq vergi güzəştlərinin təyin edilməsi, qeyri-neft sektorunun vergiyə cəlb olunması, biznes, investisiya mühitinin yaxşılaşdırılması, vergi rejiminin təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılması, eləcə də kiçik və orta sahibkarlığa dəstək məsələlərini doğru hədəflər kimi vurğulayıb.

Muhammad Yunus Daqha hər iki ölkənin vergi və gömrük xidmətləri arasında əlaqələrin dərinləşdirilməsi, təcrübə mübadiləsi aparılmasının da vacibliyini qeyd edib.

Görüşdə yaxın gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, həçminin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# Dövlət Proqramları Naxçıvanda da uğurla icra olunur

Regionların sosial-iqtisadi inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Bu proqramlara uyğun olaraq qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da bu məqsədlərdən irəli gələn vəzifələrin həllinə yönəldilmişdir.

Naxçıvan Muxtar Respublikasında Dövlət Proqramına uyğun olaraq müasir yol-nəqliyyat sisteminin qurulması, nəqliyyat sektorunun səmərəli idarə olunması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Dövlət Proqramının icrası istiqamətində ötən dövr ərzində muxtar respublikada 207 kilometr uzunluğunda asfalt yollar salınmış, 8 körpü tikilmiş, 2 körpü yenidən qurulmuşdur. Bundan əlavə, burada yerüstü piyada keçidi istifadəyə verilmişdir. Babək rayonunun Payız, Kəngərli rayonunun Qarabağlar, Şahbuz rayonunun Badamlı kəndlərində avtomobil yollarının yenidən qurulması, yerüstü piyada keçidinin və 400 yerlik avtomobil parkının tikintisi davam etdirilmişdir. Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasının tikintisi başa çatdırılmış, Naxçıvan Beynəlxalq Hava Limanında Şərq və Qərb terminalları istifadəyə verilmişdir. Yenidənqurma işlərindən sonra hava limanının illik sərnişin və yükdaşıma dövriyyəsi xeyli artmış, aerovağzal binasından istifadə edən sərnişinlərin sayı saatda 600 nəfərə çatdırılmışdır. Əhaliyə göstərilən xidmətlərin səviyyəsini yüksəltmək məqsədilə hava limanına yeni maşın-mexanizmlər alınmış, karqo terminalının yenidən qurulması davam etdirilmişdir.

"Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Naxçıvan stansiyasındakı İdarəetmə Mərkəzinin, dəmir yolu sərnişin vağzalı binasının və İnfrastruktur İdarəsinin inzibati binasının əsaslı təmiri başa çatdırılmışdır. "Naxçıvan Dəmir Yolları" MMC-nin İnfrastruktur İdarəsinin Ordubad transformator yarımstansiyası binasının əsaslı təmiri də başa çatdırılmış, Culfa stansiyasında İstismar Vaqon Deposunun, Ordubad dəmir yolu sərnişin vağzalı binasının, Ordubad yol sahəsinin inzibati binasının və 4 saylı yol məntəqəsi binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilmişdir. Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının fəaliyyəti təmin olunmuş, 3 ədəd yeni sərnişin vaqonu gətirilmişdir. Muxtar respublika ərazisində dəmiryolların təmiri işləri mütəmadi aparılmaqla qatarların hərəkətinin təhlükəsizliyi təmin edilmişdir. Türkiyə Respublikasının dəmiryolları ilə birləşdirilməsi məqsədilə Culfa-Sədərək sahəsi üzrə ilkin layihələndirmə işləri aparılır. Bundan əlavə, Bakı-Tbilisi-Qars dəmir yolunun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi istiqamətində də zəruri tədbirlər həyata keçirilir.

"Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır. Naxçıvan bu gün elektrik enerjisi ilə təchizat baxımından öz enerji təhlükəsizliyini tam şəkildə təmin edə bilibdir". Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Naxçıvanda enerji təhlükəsizliyi məsələləri artıq həll olunubdur. Elektrik enerjisi və qaz təchizatı tədbirləri çərçivəsində Şərur rayonunda 20,5 meqavat gücündə "Arpaçay-1" və 1,4 meqavat gücündə "Arpaçay-2" su elektrik stansiyalarının tikintisi başa çatdırılmış, Ordubad rayonunda 36 meqavat gücündə Ordubad Su Elektrik Stansiyasının tikintisi davam etdirilmişdir. Ordubad rayonunda layihə gücü 14 meqavat olan Tivi Su Elektrik Stansiyasının tikintisini həyata keçirmək məqsədilə elmi-tədqiqat və layihə-axtarış işləri davam etdirilir. Muxtar respublikada alternativ enerji mənbələrinin yaradılması istiqamətində Babək rayonunun Xal-xal kəndi ərazisində 20 meqavat gücündə Naxçıvan Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. İstismara verilən günəş elektrik stansiyasının gücünün artırılması ilə bağlı tədbirlər hazırda davam etdirilir. Alternativ enerji mənbələrinin potensialının müəyyənləşdirilməsi istiqamətində elmi-tədqiqat və layihə-axtarış, o cümlədən yeraltı qaz anbarının yaradılması istiqamətində işlər davam etdirilir.



Muxtar respublikada informasiya-texnologiyaları sahəsinin də əhatə dairəsi genişləndirilmiş, 4-cü nəsil mobil rabitə şəbəkəsi, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilmişdir. Muxtar respublikada poçt bölmələri, avtomat telefon stansiyaları istifadəyə verilmiş, mövcud avtomat telefon stansiyaları yeniləri ilə əvəz olunmuşdur. Şahbuz və Babək rayonlarını əhatə edən 3-cü nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən NGN avadanlıqları qurulmuşdur. Bu gün muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı, 99 faizində isə simsiz internet xidməti göstərilir. Muxtar respublikanın yaşayış məntəqələrində rəqəmsal televiziya yayımını təmin edən 6 güclü, 43 azgüclü televiziya vericisi istifadəyə verilmiş, sosial paketdə olan 12 televiziya kanalının rəqəmsal yayımı təmin edilmişdir. Bundan əlavə, Naxçıvan şəhərinin, Şərur, Babək, Şahbuz və Sədərək rayonlarının ərazilərində internet televiziyasının yayımı təşkil edilmiş, əhaliyə Yeni Nəsil Telekommunikasiya Sistemi üzərindən televiziya kanallarını izləmək və digər xidmətlərdən yararlanmaq imkanı yaradılmışdır. Duzdağ Radio-Televiziya Verici Stansiyasında 7 ədəd güclü DVB-T2 standartında rəqəmsal televiziya vericiləri istifadəyə verilmişdir ki, bu xidmət vasitəsilə 67 televiziya proqramının yayımı, Naxçıvan Dövlət Televiziyasının isə ölkədə ilk olaraq yüksəkkeyfiyyətli HD formatda yayımlanması təmin edilmişdir. Muxtar respublika ərazisində rəqəmli radio yayımı fəaliyyətə başlamış, "Universitet" televiziyasında videodərslərin hazırlanması və distant tədrisin tətbiqi məqsədilə avadanlıqlar qurulmuş, virtual studiya yaradılmış, "Universitet" televiziyasının və "Nuhçıxan" radiosunun Naxçıvan şəhərində rəqəmsal formatda yayımı təmin edilmişdir. Naxçıvan televiziyasının və dövlət radiosunun maddi-texniki bazaları gücləndirilmiş, internet üzərindən yayımları təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikasının ərazisində fiber-optik kabel şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən istehsal olunan məhsulların, həmçinin muxtar respublikada istehsal olunan ixracyönümlü məhsulların reklam olunması, xarici iş adamları ilə əlaqələrin genişləndirilməsi məqsədilə cəmiyyətin internet portalı yaradılmışdır. Bundan əlavə, muxtar respublikada elektron imzanın verilməsi üzrə müvafiq şəbəkə sistemi qurulmuşdur.

Naxçıvan şəhərində 14, Şərur şəhərində 3, Ordubad şəhərində 4, Babək qəsəbəsində və Culfa şəhərinin hər birində 1 yaşayış binasının zirzəmisi mülki müdafiənin mühəndis-texniki normalarının tələblərinə uyğun əsaslı təmir edilmiş, Şərur şəhərində 104080, Ordubad şəhərində və Babək qəsəbəsində hər birində 61560, Culfa şəhərində 73480 ədəd əleyhqaz müvafiq yaşayış binalarının zirzəmilərinə yığılmışdır. Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin yeni inzibati binasında sahəsi 256 kvadratmetr olan zirzəmi mülki müdafiənin mühəndis-texniki normalarına uyğun inşa edilərək, 16000 ədəd əleyhqaz ilə təmin edilmişdir.

Yeni tikinti materialları yataqlarının axtarışı və kəşfiyyat işləri istiqamətində Babək rayonunda radioaktiv və kompleks elementlərin qiymətləndirilməsinə dair məlumat hazırlanmışdır. Culfa rayonunda Gal sahəsində civə və kompleks filiz yataqlarında axtarış işləri, Əlincəçay vadisinin Saltaq-Qızılca kəsimində səpinti qızıl, Qaradərəsu hövzəsində inşaat materialları yataqlarının, "Şahqaraj" adlandırılan ərazidə radioaktiv və kompleks elementlərin axtarışı və qiymətləndirilməsi işləri başa çatdırılmışdır. Babək rayonunda Toydağ filizləşmə sahəsində mis-molibden yataqlarının, Culfa rayonunun Şurud sahəsində civə və kompleks filiz yataqlarının axtarışı işləri, Əlincəçay vadisinin Ərəzin sahəsində səpinti qızıl yataqlarının axtarışı və qiymətləndirilməsi üzrə layihə-smeta sənədlərinin tərtibi davam etdirilmişdir. Təhlükəli hidrometeoroloji hadisələrin erkən xəbərdarlıq sisteminin inkişaf etdirilməsi, dövlət hidrometeoroloji müşahidə şəbəkəsinin, çaylarda hidrometeoroloji monitorinq sisteminin təkmilləşdirilməsi və regional laboratoriya sisteminin yaradılması istiqamətində tədbirlər davam etdirilmişdir. Akademik Həsən Əliyev adına Azərbaycan Respublikasının Zəngəzur Milli Parkının Şahbuz, Culfa və Ordubad rayonlarının inzibati ərazilərinin meşə ilə örtülü ərazilərində rekreasiya potensialının öyrənilməsi və ekoturizm infrastrukturunun yaradılması sahəsində işlər davam etdirilir. Şərur, Babək, Ordubad, Culfa, Kəngərli, Şahbuz, Sədərək rayonlarının və Naxçıvan şəhərinin inzibati ərazilərində yeni tingçilik təsərrüfatları yaradılmışdır. Muxtar respublikanın orta dağlıq və dağlıq ərazilərindən keçən çayların – Arpaçay, Naxçıvançay, Gilançay və Əlincəçay vadilərində və arid ərazilərdə eroziyaya qarşı mübarizə məqsədilə sel-daşqın təhlükəsi olan rayonlarda, Zəngəzur və Dərələyəz silsilələrinin çayətrafı ərazilərində yeni meşə sahələri, massivləri, meyvə bağları salınmış, meşəbərpa tədbirləri aparılmışdır. Ümumilikdə, 2014-cü ildən 1 aprel 2017-ci il tarixədək muxtar respublikada 1737,8 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 1488,7 min ədəd ağac və bəzək kolları əkilmişdir. Ətraf mühitin monitorinqi üzrə yeni kompleks laboratoriyaların, Naxçıvançay vadisində Zooloji parkın yaradılması istiqamətində ilkin hazırlıq işləri aparılır.

Muxtar respublikanın rayon mərkəzlərində, qəsəbə və kəndlərində infrastruktur obyektlərinin yaradılması istiqamətində isə, ümumilikdə, 698 infrastruktur obyekti istifadəyə verilmiş, 72 infrastruktur obyektinin inşası davam etdirilmişdir. Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi istiqamətində 1 şəhər, 1 qəsəbə və 39 kənd mərkəzi, 41 xidmət mərkəzi istifadəyə verilmiş, 2 kənd mərkəzinin tikintisi davam etdirilmişdir.

**Mətanət Hüseynova**

## Компания Bakcell провела очередной семинар на тему «Введение в область мобильных телекоммуникаций»




Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане – компания Bakcell, провела очередной семинар для журналистов на тему «Введение в область мобильных телекоммуникаций». В этом году, на семинаре были подняты такие темы как дигитализация, роуминг, стартап-пространство в Азербайджане и проект «AppLab», интернет-продукты, информационная безопасность, инновационные решения, предлагаемые корпоративным клиентам Bakcell и др.

«Мобильные телекоммуникации являются одной из самых быстроразвивающихся сфер в мире. Для того, чтобы журналисты, освещающие телекоммуникационную индустрию в своей работе, могли поближе познакомиться с нововведениями в данной сфере и использовать эти знания в своей ежедневной деятельности, к семинару были привлечены ведущие специалисты компании Bakcell, которые с радостью поделились своим опытом с участниками мероприятия. . Мы уже четвертый год организуем семинар на тему «Введение в область мобильных телекоммуникаций», и каждый раз в нем принимают участие до 30-40 представителей прессы. Поэтому, мы планируем продолжить осуществление данной инициативы и в будущем» - говорит руководитель отдела корпоративных коммуникаций компании Bakcell г-жа Сухейла Джафарова.

В ходе семинара, журналисты ознакомились с презентацией об основных тенденциях цифровой трансформации, и ее положительном влиянии на повышение уровня удовлетворенности клиентов, представленной руководителем подразделения по управлению клиентским опытом и каналами Эмином Аскерсоем. Затем, старший специалист по TADIG (Группа по обмену биллинговой информацией) Лев Гунин, ознакомил представителей прессы с механизмом предоставления услуг роуминга, регулировки тарифов, а также с правилами заключения роуминг-партнерств с операторами различных стран и общим процессом работы отдела роуминга. Старший специалист по развитию дата-услуг Назлы Оруджева представила презентацию о самых инновационных продуктах на базе мобильного интернета, предлагаемых компанией Bakcell, названной провайдером самых скоростных услуг мобильной сети в Азербайджане. Менеджер по развитию приложений Орхан Бабаев, рассказал участникам семинара о стартап-среде в Азербайджане, а также о программе Applab, осуществляемой компанией Bakcell. В заключение, слушателям была представлена презентация на тему информационной безопасности и уникальных услуг, предоставляемых компанией Bakcell корпоративным клиентам.

## Специальный тариф от Bakcell для жителей Джоджуг Марджанлы: целый год бесплатных звонков




Первый Оператор Мобильной Связи и Ведущий Провайдер Мобильного Интернета в Азербайджане – компания Bakcell, представила специальный тариф для первых жителей, переселенных в село Джоджук Марджанлы, Джабраилского района.

На прошлой неделе, представители Bakcell посетили село и предоставили каждому жителю Джоджуг Марджанлы, достигшему 18-летия, номер Bakcell со специальным тарифом. Обладатели таких номеров, смогут говорить друг с другом бесплатно в течение целого года. Более того, звонки на другие номера Bakcell будут бесплатными, начиная с третьей минуты разговора.

Компания Bakcell также предоставила свои подарки жителю села Джоджуг Марджанлы Октаю Хазиеву, который недавно был награжден орденом "Труд" первой степени Президента Азербайджана за личный пример глубокой привязанности к родным землям, способствующий повышению патриотических чувств людей.

Напомним, что в мае этого года компания Bakcell, присоединившись к мероприятиям по восстановлению освобожденного от оккупации села Джоджук Марджанлы Джабраилского района, осуществила работы по оптимизации мобильной сети на территории села. В рамках этих работ, на первоначальном этапе, для обеспечения беспрерывной мобильной связью жителей Джоджук Марджанлы, на данной территории была установлена новая базовая станция. Впоследствии, компания успешно завершила работы по оптимизации сети 3G, для обеспечения высокой скорости мобильного интернета в Джоджук Марджанлы.

Bakcell и дальше продолжит оказывать поддержку в обеспечении лучшего опыта работы с клиентами на всей территории Азербайджана.

## Специалисты Blockchain сошлись в Центре Инноваций и Предпринимательства Barama




Technote Media, являющийся одним из успешных стартапов Центра Инноваций и Предпринимательства Barama ООО Azercell Telekom, организовал встречу, связанную с Blockchain, ставшей предметом широкого обсуждения за последние месяцы. Отметим, что посредством Blockchain инициаторы выводят стартапов на ICO и с помощью криптовалют привлекают крупные финансовые ресурсы. Эта тема обсуждалась при модераторстве "Орхана Ахмеда". На встрече также состоялся обмен мнениями вокруг таких вопросов, как Влияние быстрого снижения цен криптовалют на биржах на стартапы, которые в ICO, Как стартапы пользуются технологией Blockchain?, Как глобальные стартапы привлекают средства, исчисляемые миллионами долларов посредством ICO?, Различия купли-продажи криптовалют и Blockchain, а также Технология Blockchain, Bitcoin и Ethereum. На мероприятии приняли участие лица и стартапы, занимающиеся и интересующиеся системой Blockchain.

Центр Инноваций и Предпринимательства Barama, созданный с целью поддержки предпринимательства и поддерживающий новые начинания - стартапы и проекты, действующие, в основном, в области информационных технологий, учитывая актуальность системы Blockchain в наши дни, планирует организовать новые мероприятия.

## Бесплатные офтальмологические обследования продолжаются

За январь-июнь этого года Мобильной глазной клиникой, функционирующей при поддержке Azercell Telekom, были обследованы более 700 человек, около 500 из которых взрослые и более 200 – дети. В течение января врачи клиники организовали обследование 36 вынужденных переселенцев и беженцев в Кюрдамирском районе. В результате обследований пациентам были прописаны очки, а некоторым назначено лечение. Также были обследованы 58 человек в поликлинике № 13 в поселке Амирджан и поликлинике № 23 в поселке Говсан, а при поддержке Фонда Социальной Защиты Сабунчинско района обследование прошли 42 человек.

В феврале врачи клиники обследовали в общей сложности 78 человек. В школе-интернате № 11 в поселке Бильгях 42 человек, а в лечебном пансионате для инвалидов в поселке Шаган 36 человек прошли обследование. Также в обществе "Красный Полумесяц" Наримановского района к обследованию было привлечено 32 человека.

Врачи клиники отличились активной деятельностью и в весенние месяцы. В марте врачи оказали медицинские услуги беженцам в поселке Локбатан и в детской деревне SOS в городе Гянджа, а также Русской общине Наримановского района. В марте обследование прошли более 100 человек.

В апреле и мае врачи Мобильной глазной клиники при поддержке Исполнительной Власти оказали медицинские услуги 29 учащимся школы-интерната в поселке Пиршаги, 30 неимущим учащимся, проживающим в поселке Пираллахы, 84 учащимся, проживающим в Ясамальском и Низаминском районах, 35 неимущим учащимся полной средней школы села Гедекли Хачмазского района. В июне врачи клиники провели обследование и лечение 43 беженцев и вынужденных переселенцев, проживающих в Ясамальском районе и в поселке Дарнагюль, а также 25 человек в Обществе "Красный полумесяц" на 20-ом участке. В июне Мобильная глазная клиника оказала медицинские услуги 28 вынужденным переселенцам, проживающим в Хачмазском районе.

За период своей 4-х летней деятельности клиника, при поддержке Azercell и Общественного Объединения "Каспийский Проект Сострадания", побывала во многих школах-интернатах и детских домах города Баку. Наряду с Баку, врачи клиники оказали медицинские услуги нуждающимся в лечении людям во многих регионах страны.




## SOFAZ продал азербайджанским банкам почти $2 млрд.



Государственный нефтяной фонд Азербайджана (SOFAZ) в июле 2017 года реализовал на организованных Центральным банком валютных аукционах 253,2 миллиона долларов, сообщает в среду фонд.

За семь месяцев 2017 года SOFAZ реализовал на валютных аукционах свыше 1,94 миллиарда долларов.

Всего в 2016 году азербайджанские банки купили у Нефтяного фонда около 4,92 миллиарда долларов.

Нефтяной фонд в 2017 году продолжит продажу валюты через аукционы. Продажа валюты осуществляется в рамках трансфертов SOFAZ в государственный бюджет Азербайджана, которые предусмотрены на 2017 год в размере 6,1 миллиарда манатов. Согласно новому механизму, официальный курс маната на следующий день определяется на основе средневзвешенного курса по сделкам, заключенным с коммерческими банками на межбанковском валютном рынке и аукционах. Аукционы проводятся в формате односторонней продажи валюты.

# Daim yenilik axtaran islahatçı alim



***Azərbaycan iqtisad elminin layiqli nümayəndəsi, iqtisad elmləri doktoru, professor, Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi, tanınmış iqtisadçı alim Tərbiz Nəsib oğlu Əliyevin anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 45 ili tamam olur.***

İqtisad elmləri doktoru, professor Tərbiz Nəsib oğlu Əliyev yüksək mədəniyyətə malik ziyalı, təvazökar insan, olduqca zəhmətkeş, həmişə yenilik axtaran islahatçı alimdir. Azərbaycan iqtisad elminin inkişafında böyük xidmətləri olan Tərbiz Əliyevin 70 yaşı tamam oldu.
O, 1947-ci ildə iyun ayının 1-də Füzuli rayonunun Əhmədbəyli kəndində anadan olmuşdur. 1965-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunun (Az. DNSU) mühəndis-iqtisad fakültəsinə qəbul olunmuşdur. 1970-ci ildə universiteti bitirən gənc Tərbiz Əliyev daha sonra institutun "Sənaye müəssisələrinin iqtisadiyyatı, təşkili və planlaşdırılması" kafedrasının dissertanturasına daxil olmuşdur. 1972-1975-ci illərdə "İdarəetmə işçilərinin əməyinin təşkili və onun təkmilləşdirilməsi yolları" (Bakı Neft və Neft-kimya müəssisələrinin timsalında) mövzusunda namizədlik dissertasiyası üzərində işləyə-işləyə, eyni zamanda, "Bakı Neft Emalı Zavodu" və "Suraxanıneft" NQÇİ-nin sosial-iqtisadi inkişafı istiqamətlərinin işlənib hazırlanmasında fəal iştirak etmiş və həmin tədqiqat işinin əsas müəlliflərindən biri olmuşdur. Bununla yanaşı, həm də "Elmi-texniki tərəqqi", "Xalq istehlakı malları", "İri sənaye obyektlərinin texniki-iqtisadi əsaslandırılması", "İstehsal sahələrinin yerləşdirilməsinin baş sxemi" və s. bu kimi bir çox məqsədli proqramların icraçısı və elmi rəhbəri kimi də tanınmışdır. O, 1978-ci ildə namizədlik dissertasiya işini tamamlayıb, Azərbaycan EA-nın İqtisadiyyat İnstitutunda müdafiə etmişdir və bununla da əməksevər, yaradıcı tədqiqatçı kimi yüksək keyfiyyətə malik olduğunu təsdiqləmişdir. İqtisad elmində öz dəst-xətti, imzası ilə tanınan T.Ə.Əliyev respublikada Nazirlər Kabinetinin 15 oktyabr 1979-cu il tarixli qərarı ilə təsdiq edilmiş və yerinə yetirilmiş Ali və orta ixtisas təhsili müəssisələrinin nümunəvi vəzifə nomenklaturası kimi irihəcmli və respublika əhəmiyyətli elmi-tədqiqat işinin icraçısı və elmi rəhbəri olmuşdur. T.Əliyev keçmiş SSRİ məkanında çox mühüm elmi əhəmiyyət kəsb edən sosioloji tədqiqatların aparılmasında fəal iştirak etmiş, onun təşəbbüsü ilə ilk dəfə olaraq sosioloji tədqiqatlar əsasında məişət xidmətləri obyektlərinin yerləşdirilməsinin metodiki əsasları işlənib hazırlanmışdır. T.Əliyev 1985-ci ildə İ.Qibkin adına Moskva Neft və Qaz İnstitutunun doktoranturasına daxil olmuşdur. 1985-1986-cı illərdə həmin institutda dünya şöhrətli alimlərlə birlikdə çalışmış, iqtisad elminin bir çox problemlərinin dərindən öyrənilməsində onlardan məsləhət almışdır. T.Əliyev 1992-ci ildə Azərbaycan Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda fəaliyyət göstərmiş ixtisaslaşdırılmış Dissertasiya Şurasında "Neft emalı və neft-kimya müəssisələrində idarəetmənin təşkilinin səmərəliliyi" mövzusunda dissertasiya müdafiə edib iqtisad elmləri doktoru alimlik dərəcəsi almışdır. 1996-cı ildə ADNA-nın professoru vəzifəsinə seçilmişdir. Tanınmış iqtisadçı alim, iqtisad elmləri doktoru, professor Tərbiz Əliyev 1970-1974-cü illərdə Azərbaycan SSR Dövlət Plan Komitəsinin AzETETİ-də kiçik elmi işçi və böyük iqtisadçı, 1974-1978-ci illərdə Azərbaycan Respublikası Əhaliyə Məişət Xidməti Nazirliyinin EKTİ-də "Sahənin inkişafı, yerləşdirilməsi və sosioloji tədqiqatlar" şöbəsinin müdiri, 1979-1981-ci illərdə Əhaliyə Məişət Xidməti Nazirliyinin istehsalat idarəsinin rəisi və kollegiya üzvü, 1982-1986-cı illərdə AzNKİ-də "İstehsalın iqtisadiyyatı, təşkili və idarəedilməsi" kafedrasının baş müəllimi və dosenti, 1981-1983-cü illərdə isə "Mühəndis-iqtisad" fakültəsində ideya-tərbiyə işləri üzrə dekan müavini, 1986-1990-cı illərdə LKTİ-nin direktoru, kollegiya üzvü, 1997-2010-cu illərdə ADNA-nın Neft emalı, neft kimya sahələrinin iqtisadiyyatı və menecment kafedrasının müdiri, 2010-2015-ci illərdə AMEA-nın Elmi İnnovasiya Mərkəzində əvvəlcə baş direktorun elmi işlər üzrə müavini, daha sonra isə Təhsil-Tədris mərkəzinin direktoru vəzifəsində çalışmış, hazırda isə AMEA-nın İqtisadiyyat İnstitutunda baş elmi işçi vəzifəsində çalışır. T.Əliyev 750 çap vərəqi həcmindən çox olan, 250-dən artıq monoqrafiya, dərslik, kitab, məqalə və tezislərin müəllifidir. Onun elmi əsərlərinin 48-i xarici ölkələrin nüfuzlu mətbuat orqanlarında çap olunmuşdur. Onun elmi rəhbərliyi ilə 40-dan çox iqtisad üzrə fəlsəfə və bir elmlər doktoru hazırlanmış, 42 namizədlik və doktorluq dissertasiya işlərinin opponenti olmuşdur. T.Əliyevin elmi fəaliyyətində müstəqillik illərini xüsusi bir mərhələ kimi qiymətləndirmək lazımdır. Onun əsərlərinin xeyli hissəsi bu dövrdə çap olunmuşdur və onun yazdığı kitab və məqalələr üçün yeni bir təfəkkür tərzi xarakterikdir. Bu kitab və məqalələr içərisində "Azərnəşr" tərəfindən dərs vəsaiti çap edilmiş "Məişət xidmətinin iqtisadiyyatı və idarə olunması" (Bakı, 1992-ci il) kitabı diqqəti cəlb edir. Görkəmli iqtisadçı alimin çap olunmuş əsərlərindən aşağıdakıların adlarını çəkmək kifayətdir: "Biznesin idarə edilməsinin əsasları" (Bakı, 1994), "Menecmentin iqtisadi və təşkilati mexanizmi" (Bakı, 1995), "Sənaye müəssisələrində vergi ödənişinin təşkili və idarə edilməsi" (Bakı, 1998), "Neft emalı müəssisələrinin idarəetmə sisteminin təkmilləşdirilməsi" (Bakı, 1999), "Neft-qazçıxarma sahəsinin potensialının idarəedilməsinin təşkili"; "Sənaye müəssisələrinin təşkili-istehsalat sisteminin bazar münasibətlərindəki dəyişikliklərə uyğunlaşdırılması"; "Müştərək müəssisə və sahibkarlıq"; "Azərbaycanda kiçik biznesin təşkili və idarəedilməsinin bəzi məsələləri" (Bakı, 2001-ci il); "Neft emalı müəssisələrində sənaye auditinin təşkili və idarə edilməsi"; "Azərbaycanda qaz emalı və satışının bəzi məsələləri" (Bakı, 2002); "Neft-kimya müəssisələrinin idarə edilməsinin təşkilati-iqtisadi səmtləri"; "Neft-qazçıxarma sənayesi müəssisələrinin iqtisadi potensialı"; "Neft emalı və neft-kimya müəssisələrinin iqtisadi potensiallarından istifadənin yaxşılaşdırılması yolları" (Bakı, 2003), "Marketinqin təşkili və idarə edilməsi: neft emalı və neft-kimya sənayesi müəssisələrində" (Bakı, 2004); "Neft emalı və neft-kimya sahələrinin ekoloji-iqtisadi problemləri"; "Ekoloji menecment" (Bakı, 2010); "Regional innovasiya sisteminin təşkili və idarəedilməsi" (müştərək) (Bakı, 2013); "Milli innovasiya sisteminin təşkili və idarə edilməsi" (müştərək) (Bakı, 2013); "Neft-mədən avadanlıqları istehsal edən müəssisələrin innovasiya aktivliyi"; "Regional sosial-iqtisadi inkişaf - tarixi faktlar, reallıqlar və inkişaf meyilləri" (Bakı, 2015); "Azərbaycan sənayesinin innovativ inkişafı: neft emalı, kimya və neft-kimya" (Moskva-Berlin, 2016); "Marketinq" (dərs vəsaiti) (Bakı, 2016) və sair.
T.Əliyev elmi-pedaqoji fəaliyyəti dövründə çoxsaylı beynəlxalq və respublika əhəmiyyətli elmi-praktiki konfranslarda, iqtisadiyyatın və idarəetmənin aktual problemlərinə həsr edilmiş məruzələrlə yadda qalan çıxışlar edərək, ölkəmizin elmini layiqincə təmsil etmişdir. O, uzun müddət indiki Dövlət Neft və Sənaye Universitetinin nəzdində fəaliyyət göstərmiş birdəfəlik müdafiə şurasının sədri, həmsədri olduğu dövrlərdə 5 nəfər elmlər doktoru, 23 nəfər isə elmlər namizədi dissertasiya işlərini müdafiə etmişdir. 15 ilə yaxın dövr ərzində AMEA-nın İqtisadiyyat İnstitutunda Dissertasiya Şurasının üzvü kimi fəaliyyət göstərən Dissertasiya Şurası sədrinin müavinidir. Prof. T.Əliyevin həm elmi yaradıcılığında, həm də ali təhsil müəssisələrində yüksək vəzifələrdə fəaliyyətində zəhmətkeşlik, xeyirxahlıq kimi keyfiyyətlər aydın şəkildə özünü göstərir. Görkəmli iqtisadçı alimimizi ürəkdən təbrik edir, can sağlığı, gələcək işlərində uğurlarının bol olmasını diləyirik. Ümid edirik ki, prof. T.N.Əliyev özünün yeni-yeni elmi tədqiqatları ilə elm aləmini sevindirəcək. Ona bu yubiley ilində yeni yaradıcılıq nailiyyətləri arzulayırıq.

**P.Ə.Həsənova, BDU-nun İqtisadiyyat və idarəetmə kafedrasının professoru, i.ü.e.d.**

# "AccessBank"da depozitlər artıb

"AccessBank" QSC 2017-ci ilin birinci yarısı üzrə maliyyə göstəricilərini açıqlayıb.
Cari ilin yanvar-iyun ayları ərzində "AccessBank"ın faiz gəlirləri 55 milyon 731 min manat təşkil edib. Bank qeyri-faiz əməliyyatları üzrə 4 milyon 375 min manat zərər edib.
Faiz, qeyri-faiz xərcləri çıxıldığından və aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatın yaradılmasına 26 milyon 86 min manat ayırıldığından bankın 42 milyon 939 min manat zərəri yaranıb. Qeyd edək ki, zərərin yaranması ehtiyatlara ayırmalar ilə bağlıdır. Ödənməyən kreditlərin arta biləcəyi ehtimalına görə, bank öncədən gəlirinin bir hissəsi hesabına ehtiyatlanır. Yəni, kreditlər qaytarılmadığı halda, "AccessBank", onun kreditorları və əmanətçiləri bundan ziyan çəkməyəcəkdir.
30 iyun 2017-ci il tarixində "AccessBank" QSC 872 milyon 635 min manat cəmi aktivlərə, 807 milyon 266 min manat cəmi öhdəliklərə və 65 milyon 369 min manat cəmi balans kapitalına malik olub. Bank ötən ilin sonunda 1 milyard 58 milyon 871.7 min manat cəmi aktivlərə, 1 milyard 6 milyon 411 min manat cəmi öhdəliklərə və 52 milyon 460 min manat cəmi kapitala malik idi. Kapitalın artması nizamnamə kapitalının artırılması ilə bağlıdır.
İlin birinci yarısında "AccessBank"ın xalis kredit portfeli 598 milyon 794 min manatdan 507 milyon 163 min manata düşüb, depozit portfeli isə 284 milyon 846 min manatdan 313 milyon 463 min manata qalxıb. Kredit portfelinin azalması kreditlərə tələbin azalması ilə əlaqədardır.
"AccessBank" digər maliyyə müəssisələrindən (banklardan başqa) aldığı kreditlərin xeyli hissəsini qaytarıb. Bankın belə kredit borcu 511 milyon 151 min manatdan 347 milyon 574 min manata düşüb. Subordinasiyalı və sair bu qəbildən olan borc öhdəlikləri 79 milyon 681.5 min manatdan 69 milyon 791 min manata geriləyib.
Birinci yarımildə "AccessBank"ın Mərkəzi Banka borcu 20 milyon manat azalıb. Belə ki, AMB-nın banka qarşı tələbləri 30 milyon manatdan 10 milyon manata düşüb.
15 mart 2017-ci il tarixində AccessBank-ın səhmdarlarının 34.85 mln. manat məbləğində 8.2 mln. yeni səhmlər əldə etməsi nəticəsində Bankın nizamnamə kapitalı 119.85 milyon manata artırılmışdı. Bu il də Bankın nizamnamə kapitalının artırılacağı gözlənilir.

# «Bank of Baku»nun maliyyə vəziyyəti açıqlandı

Bank of Baku cari ilin ikinci rübü ərzində əldə etdiyi maliyyə göstəricilərinə dair hesabatını açıqlayıb.
Bankdan daxil olmuş məlumata görə, əsasən bankın 30 iyun 2017-ci il tarixinə olan faiz gəlirləri 32.20 milyon AZN, faiz xərcləri isə 14.21 milyon AZN təşkil edib. Nəticə etibarilə, bu dövr ərzində Bankın xalis faiz gəlirləri 17.99 milyon AZN həcmində olub. Hesabat dövründə Bankın qeyri-faiz gəlirləri 0.15 milyon AZN, qeyri-faiz xərcləri 14.27 milyon AZN təşkil edib ki, bu da mənfi 14.12 milyon AZN həcmində xalis qeyri-faiz gəlirlərini formalaşdırıb.
Həmçinin, qeyd edilən rübün yekununa əsasən, Bankın əməliyyat mənfəəti 3.87 milyon AZN, gözlənilməz digər fəaliyyətlərdən ümumi gəliri isə 2.81 milyon AZN təşkil edib ki, bu da öz növbəsində mümkün zərərlərin ödənilməsi üçün ayrılan ehtiyatlar nəzərə alınmadan Bankın 6.68 milyon AZN həcmində mənfəət əldə etdiyini göstərir.
Bank qarşılaşa biləcəyi mümkün zərərlərin ödənilməsi üçün qeyri-işlək kreditlərə qarşı 32.72 milyon AZN həcmində ehtiyat vəsait ayırıb. Bankın devalvasiyadan sonra yaranmış ümumi iqtisadi vəziyyətin fonunda geri ödəniş etməkdə çətinlik çəkən müştərilərin qeyri-işlək kreditlərinə qarşı yaratdığı ehtiyatlarının nəticəsində hesabat tarixinə 26.04 milyon AZN zərəri olmuşdur. Lakin qeyd etdiyimiz kimi, zərər olaraq göstərilən məbləğ Bankın ümumi ehtiyatlarına ayırdığı vəsaitin əsasında formalaşıb.
Daim müştərilərinə sərfəli şərtlərlə kreditləşmə imkanı təqdim edən Bank of Baku aprel-iyun 2017-ci il tarixləri arasında müştərilərinə kredit verməkdə davam etmiş və nəticə etibarilə rüb ərzində kredit portfelini 12.5 milyon AZN artıraraq ümumi kredit portfelini 346.02 milyon AZN-dək çatdırıb.
Qeyd edək ki, Bankın depozit portfelində fiziki və hüquqi şəxslərin tələbli depozitlərinin ümumi məbləği rüb ərzində 20.86 milyon AZN həcmində artaraq, rübün yekununda ümumilikdə 57.64 milyon AZN təşkil edib. Dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qəbul edilən müddətli depozitlər də həmçinin 12.91 milyon AZN artıb və nəticə etibarilə əmanət portfeli 271.05 milyon AZN-dək yüksəlib.
Pərakəndə bankçılıq sahəsinin uzun illər lideri olaraq tanınan Bank of Baku ötən ilin sonlarından etibarən korporativ bankçılıq sahəsində də fəaliyyət dairəsini genişləndirməkdə davam edir.
Hesabatın əhatə etdiyi dövrdə Bankın nizamnamə kapitalının artırılması ilə bağlı mühüm qərar verilmişdir.
Bank of Baku növbəti dövrlərdə də maliyyə stabilliyinin qorunub saxlanılması və daha da gücləndirilməsi niyyətindədir.

# Bakı Fond Birjasından "Xalq Kapital" qərarı




Xalq Kapital İnvestisiya Şirkəti" QSC-nin Bakı Fond Birjasında üzvlüyü bərpa olunmuşdur.
31 iyul 2017-ci il tarixində "Xalq Kapital İnvestisiya Şirkəti" QSC-nin fəaliyyəti Azərbaycan Respublikasının "Qiymətli kağızlar bazarı haqqında" Qanununa və Bakı Fond Birjasının (BFB) "Üzvlük Qaydaları"na uyğunlaşdırıldığı üçün BFB-nin Üzvlük Komissiyasının qərarı ilə birja üzvlüyü bərpa olunmuşdur.
"Məlumat üçün bildiririk ki, "Xalq Kapital İnvestisiya Şirkəti" QSC Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 09 iyun 2017-ci il tarixində verilmiş investisiya şirkəti fəaliyyəti üçün lisenziyaya malikdir",- Birjanın məlumatında deyilir.
Hazırda BFB-nin "Xalq Kapital İnvestisiya Şirkəti" QSC də daxil olmaqla 7 üzvü var.

# "Standard ənd Purz" Azərbaycanın reytinqini təsdiqləyib




28 iyul 2017-ci il tarixində "Standard ənd Purz" (Standard and Poor's) reytinq agentliyi Azərbaycan Respublikasının suveren kredit reytinqinin ənənəvi qiymətləndirməsini aparmış və müvafiq hesabatını açıqlamışdır.
Maliyyə Nazirliyinin mətbuat xidmətindən daxil olmuş məlumata görə, agentlik Azərbaycan Respublikasının uzunmüddətli və qısamüddətli xarici və milli valyutada suveren kredit reytinqini dəyişməyərək müvafiq olaraq 'BB+/B' səviyyəsində, "mənfi" proqnoz ilə saxlamışdır.
"Standard ənd Purz" reytinq agentliyinin yaydığı son hesabatda reytinqin dəyişməz olaraq saxlanılmasına əsas səbəb kimi ölkənin möhkəm fiskal mövqeyi, xüsusilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun xarici valyutada ehtiyatlarının mövcudluğu göstərilir.
Agentlik hesab edir ki, tədiyə balansına olan təzyiqlərin aradan qalxacağı, ölkənin iqtisadi inkişaf göstəricilərinin gözlənilən artımı və daxili bank sistemində sabitliyin möhkəmlənməsi nəticəsində reytinq üzrə proqnoz mənfidən müsbətə keçirilə bilər.

# REKLAM MƏTNİNİN YARADILMASININ YEDDİ BAŞLICA PRİNSİPİ



Heç kimə sirr deyil ki, XXI əsr qlobal informasiya əsridir. İnformasiyaya malik olan dünyaya yiyələnir. İldən-ilə informasiya axınlarının miqdarı və onların həcmi həndəsi silsilə ilə artır. Bu, bütün mümkün texnoloji sistemlərin hiper inkişafı ilə şərtlənir. Bəzən özünə əmin olanların reklam mətnləri çox mürəkkəb, təmtəraqlı və ibarəli, həmçinin qeyri-anlaşıqlı kimi görünür. Deməli, reklamverici üçün real mənfəət mənasında nəticə səmərəli deyil. Bəs, bu, niyə baş verir? Axı, elə təsəvvür yaranır ki, zamanın özü mətnin yaradılmasını intuitiv olaraq asan və sürətli etmişdir. Bunun əsas və bəlkə də yeganə səbəbi müasir dövrün tələblərinə mütləq mənada cavab verməyən reklam mətnlərinin yaradılmasıdır. İnformasiya axınının insanı hər tərəfdən əhatə etdiyi bir zamanda ondan "özünkünü" ayırmaq o qədər də asan deyil. Xüsusilə, yaxşı reklam mətni bu ayırmaya maksimum kömək etməlidir. Zəruri informasiyanın istehlakçıya müxtəlif, yığcam, lakin bitkin halda, sadə və cəlbedici formada çatdırılması müasir reklam mətninin əsas təyinatıdır. Hər bir sifarişçinin bütün səyləri də məhz bundadır. Əlbəttə, reklam mətninin cansıxıcı, darıxdırıcı, quru və qısa olması oriyentir olmamalıdır. Reklam mətninin müasir oxucusuna xüsusi yanaşmanın olması vacibdir. Deməli, mətnin özünə də xüsusi yanaşma lazımdır. Bu halda mətnin strukturlaşması, sərlövhələr, yarımsərlövhələr, illüstrasiyaların, şriftlərin və digər taktiki konkret halların əhəmiyyəti haqqında köhnəlmiş, çeynənmiş həqiqətləri təkrarlamaq məqsədəuyğun deyil. Strateji vacib prinsiplər nöqteyi-nəzərindən yaxşı reklam mətninin yaradılmasını nəzərdən keçirmək mühüm məsələdir. Praktika göstərir ki, belə prinsiplərin sayı yeddidir.

**1.Lakoniklik və sadəlik.** Real həyatda biz bir-birimizlə çoxsaylı üslublu təmtəraqlı, dəbdəbəli, ibarəli sözlərlə yox, sadə anlaşıqlı sözlərlə və cümlələrlə ünsiyyətdə oluruq. Nə üçün? Çünki beləliklə bizə maksimum qısa müddət ərzində hər hansı fikri anlamaq asandır. Belə ünsiyyət orqanomika qanunudur ("erqonomika" yunan "eqos" – "iş", "nomos" – "qanun" deməkdir və vəzifə öhdəliklərinin, iş yerlərinin və əmək predmetlərinin uyğunlaşdırılması haqqında elmdir). Sifarişçilərin istehlakçıya müraciəti – qarşılıqlı anlaşma üçün nəzərdə tutulan ünsiyyətdir. Buna görə də belə bir ünsiyyətin əsas elementi olan mətn dostcasına danışığa maksimum oxşamalıdır. Məhz lakoniklik və sadəlik hər hansı bir informasiyanı asanlıqla mənimsənilən edir. Axı, bu nəticə reklam mətninin əsas vəzifələrindən biridir. Əgər istehlakçı informasiyanı mənimsəmişdirsə, deməli, o, şüuraltı həkk olunmuşdur və ona axırda müraciət etmək olar. Ona görə də reklam mətnlərini sadə sözlərlə və uzunluğu 7-10 sözdən artıq olmayan qısa cümlələrlə yazmaq olar. Əgər sözlər uzun olarsa, oxucu informasiyanı bütünlükdə yox, hissələrlə qəbul edəcəkdir. Əlbəttə, bu ümumi nəticəyə mənfi təsir göstərəcəkdir. Bunun baş verməməsi üçün dəfələrlə təkrar oxumaq lazımdır. Axı, oxumaq, yazıçılıq istedadının inkişafının ən yaxşı üsuludur.

**2. Stereotiplərdən istifadə edilməsi.** Stereotiplər insan qruplarını birləşdirənlərdir. Bizim hamımız eyni məktəblərdə və eyni dərsliklərlə oxumuşuq, eyni filmlərə baxmışıq, eyni musiqiyə qulaq asmışıq, eyni futbol komandasına azarkeşlik etmişik və eyni dərəcədə əzab çəkmişik. Əlbəttə, hər birimizdə fərdi fərqlər də mövcuddur. Buna baxmayaraq, onlar bizim şüuraltımızda olan əsas stereotiplərin formalaşmasına az dərəcədə təsir edir. Axı, fərdin həyatının necə təşəkkül tapmasından asılı olmayaraq, "ana" sözü əksəriyyət üçün "məhəbbət", səmimiyyət, hərarət, nəvaziş, mehribanlıq", "sərvət" - ən müqəddəs, istəkli arzu kimi assosiasiya olunur.

Buna görə də yaxşı reklam mətninin yaradılmasının başlıca prinsipi bu və ya digər məqsədli auditoriya üçün ümumi olan stereotiplərdən düzgün istifadə edilməsidir. Bura o faktı da əlavə etmək lazımdır ki, insanlar informasiyanın şüuraltı qavranılmasında üç əsas tipə bölünürlər. Vizuallar - görmə qabiliyyətinin köməyilə informasiyanın böyük bir hissəsini qavrayan insanlar. Audiallar – eşitmə qabiliyyəti ilə əsas informasiya alan insanlar. Kinestetlər - hissiyyatla (iy duyğusu, toxunma hissi, yaxud lamisə və s.) informasiyanı qavrayan insanlar. Ümumi stereotipin onların hər birinə eyni dərəcədə səmərəli toxunmasından ötrü hər bir qavrama qrupuna uyğun olan ifadələrdən istifadə edərək oxuculara müraciət etmək lazımdır. Məsələn, vizuallar üçün - "görünür ki", "fikrimizcə", "nöqteyi-nəzərdən", audiallar üçün – "necə deyərlər", "söhbət ondadır ki", "bu səslənir", kinestetlər üçün – "necə görünür", "dərhal hiss olunur", "yaxşı misaldır". Lakin stereotiplərlə "oyunlarda" son dərəcə ehtiyatlı olmaq lazımdır. Hər hansı bir düşünülməmiş addım pis zarafata və əks effektə gətirib çıxara bilər ki, onları sonradan düzəltmək çox çətin olacaqdır. Belə vəziyyətlərdən xilas olmaqdan ötrü məqsədli auditoriya haqqında mümkün qədər çox bilmək lazımdır.

**(davamı gələn sayımızda)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**




# Qlobal media nəhəngindən 14,6 milyard dollarlıq satınalma



Tərkibində bir çox konsepsiyada televiziya kanalı olan "Discovery Communications" şirkəti verdiyi bəyanatla oxşar tərzdə məzmunlar istehsal edən "Skripps Networks"ü 14.6 milyard dollarla satın almaq barədə razılaşdıqlarını açıqlayıb.

Satınalma prosesinin 2018-ci ilin ilk aylarında başa çatdırılması gözlənilir.

"Eurosport", "Discovery Channel", "Animal Planet", "Sci" kimi heyvanlar aləmi, həyat tərzi, əyləncə və idman yönümlü kanallar "Discovery Communications" şirkətinə məxsusdur.

"Skripps Networks" ötən il 3 milyard dollar həcmində gəlir əldə edərkən, şirkətin borcu 2.7 milyard dollar olaraq açıqlanmışdı. Şirkətin kanalları arasında "Travel Channel", "Food Network", DIY, "Cooking Channel", TVN kimi kanallar var.

"Skripps" səhmdarları bir səhmə 63 dollar alacaqdır.

# 40 min bankir işini itirə bilər



İngiltərədə Brexit-dən sonra 40 min investisiya bankiri işini itirə bilər.

"Oliver Wyman" məsləhət şirkəti tərəfindən hazırlanan yeni bir hesabata görə, İngiltərənin maliyyə sektoru, Avropa Birliyindən daha yumşaq çıxış razılaşması əldə edilmədiyi təqdirdə, gələcək bir neçə ildə 40 min nəfər bank əməkdaşı işini itirə bilər. Hazırda banklar İngiltərənin Avropa İttifaqından çıxması ilə Avropanın ortaq bazarına girişi itirəcəkləri pis vəziyyət ssenarisinə görə planlaşdırma aparırlar. Həmçinin, İngiltərə ilə Brüssel arasındakı müzakirələrin necə inkişaf edəcəyini görmək üçün gözləməyə vaxtları da yoxdur.

"Oliver Wyman"ın hesabatına görə, investisiya bankları ilk fazada 12.000-17.000 arasında məşğulluğu London xaricinə köçürəcəklər. Sonradan alqı-satqı əməliyyatlarının da İngiltərə xaricinə köçməsilə bu sayın 40 minə çatacağı ehtimal edilir.

Londonda satış, alqı-satqı və investisiya bankçılığını əhatə edən bank sektorunda 80 min nəfərə yaxın çalışır.

# Twitter-in istifadəçilərinin sayı dəyişməyib, şirkət zərər edib



ABŞ-ın beynəlxalq sosial şəbəkə şirkəti Twitter bu ilin ikinci rübündə zərər etdiyini bildirib.

Twitter-dən verilən açıqlamada şirkətin, bu ilin ikinci rübündə 116 milyon dollar zərər etdiyi qeyd olunub.

Twitter ötən ilin ikinci rübündə də 107 milyon dollar zərər açıqlamışdı.

Açıqlamada şirkətin bu ilin ikinci rübündəki gəlirlərinin də keçən ilin eyni dövrü ilə müqayisədə 4,6 faiz azalaraq 574 milyon dollara düşdüyü qeyd edilib. Şirkət keçən ilin aprel-iyun dövründə 602 milyon dollar gəlir əldə etmişdi. Açıqlamada fikirlərinə yer verilən Twitter-in İcraçı direktoru Jack Dorsey aylıq orta hesabla aktiv istifadəçi sayının bu ilin ikinci rübündə keçən ilin eyni dövrü ilə müqayisədə 5 faiz yüksəldiyini bildirərək, gündəlik orta hesabla aktiv istifadəçi sayının da həmin dövrdə illik 12 faiz artım göstərdiyini bildirib.

Digər tərəfdən, açıqlamada aylıq orta hesabla istifadəçi sayının bu ilin aprel-iyun dövründə, bu ilin yanvar-mart dövrü ilə müqayisədə dəyişməyərək 328 milyonda qaldığı məlumatına yer verilib.

Twitter-in zərər etdiyini açıqlamasının ardından şirkətin səhminin qiyməti Nyu-York Birjasında 14 faiz azalma ilə 16,85 dollara qədər geriləyib.

# Facebook dünyanın ən dəyərli 4-üncü şirkəti oldu

ABŞ-ın sosial media şirkəti Facebook elektron ticarət şirkəti Amazon-u geridə qoyaraq, bazar dəyəri baxımından dünyanın ən iri şirkətləri arasında 4-üncü sıraya yüksəlib.

Nyu-York Birjasından toplanmış məlumatlara görə, Facebook-un bir səhminin dəyəri 170,44 dollardan 171,58 dollara yüksəlib. Beləliklə, şirkətin bazar dəyəri də 497 milyard dollara çatmışdır.

Digər tərəfdən, bu ilin ikinci rübündəki xalis mənfəətində azalma olduğunu açıqlayan Amazon-un səhmləri 1008,80 dollara geriləyərək, 3,5% azalma qeyd edib. Amazon-un bazar dəyəri də 482 milyard dollara geriləyib.

Beləliklə, bazar dəyərilə Amazon-u geridə qoyan Facebook, dünyanın ən dəyərli 4-üncü şirkəti mövqeyinə yüksəlib.

Amazon-un ikinci rüb balansının müsbət çıxacağı gözləndiyinə görə şirkətin səhmlərində artım görülmüş, şirkətin banisi və rəhbəri (İcraçı Direktoru) olan Cef Bezos da dünyanın ən varlı adamı siyahısında birinci yerə çıxmışdı. Ancaq şirkətin bu ilin ikinci rübündəki xalis mənfəətinin, keçən ilin eyni dövrü ilə müqayisədə 77 faiz azalma qeyd etdiyini açıqlamasının ardından, Bezos təkrar ikinci sıraya geriləyib və siyahıdakı liderliyi yalnız 8 saat davam etmişdi.

Forbes-in "Dünyanın Milyarderləri Siyahısına" görə, Facebook-un İcraçı direktoru, 33 yaşlı Mark Zuckerberg 71,5 milyard



dollarlıq sərvətiylə dünyanın ən varlı 5-inci adamıdır. O, ən gənc milyarderdir.

## ETİBARSIZDIR

Məlikməmmədova Minəxanım Məhərrəm qızının adına Yeni Yasamal 1. ev 10. mənzil 118 ünvanına verilmiş kupça (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500